# I BÖLMƏ.
# ÜMUMİ İQTİSADİ MƏSƏLƏLƏR

**UOT 338**

***Vasif Balaxan oğlu HƏZİYEV***
***i.e.n., dos., Azərbaycan Kooperasiya Universiteti***
***"Menecment və ticarət" kafedrasının müdiri,***

***Aydın Ehtibar oğlu BƏHRƏMOV***
***i.f.d., baş müəllim, Azərbaycan Kooperasiya Universiteti***
***"Menecment və ticarət" kafedrası***

## BİZNES-PLANIN FORMALAŞMASININ NƏZƏRİ METODOLOGİYASI

*Xülasə*

**Tədqiqatın məqsədi -** Biznes planının formalaşmasının mühüm istiqamətlərinin müəyyənləşdirilməsi, müasir biznes idarəçiliyində tətbiq edilən mexanizmlərin və texnologiyaların aydınlaşdırılmasıdır. Bundan əlavə, biznesdə mövqelərin təhlili və səlahiyyətlərin bölüşdürülməsi və biznes-planın onun inkişaf strategiyaları ilə əlaqələndirilməsi araşdırılır.

**Tədqiqatın metodologiyası -** tədqiqat işində biznes-planın müqayisəli təhlil, qruplaşdırma, ümumiləşdirmə və təhlil metodlarından istiqafə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Biznes-planın formalaşması, biznesin daxili və xarici mühit amillərinin destruktiv təzahürlərinin neytrallaşdırılması mahiyyət etibarilə iqtisadi aktivliyin və biznes aktivliyinin yüksəldilməsinə əlverişli şərait yaradır ki,bu da biznes-planın yüksəlməsinə müsbət təsir göstərir və eyni zamanda sahibkarlıq və biznes fəaliyyətinin səmərəli qurulmasının perspektivliyini yüksəldir.

**Tədqiqatın nəticələri -** Müasir iqtisadi şəraitdə lazımi qərarların qəbul edilməsi üçün ən əlverişli variant Biznes - planların geniş şəkildə tətbiq edilməsidir. Bazar iqtisadiyyatı şəraitində tələb olunan səviyyədə hazırlanmış Biznes-plan olmadan yüksək nailiyyətlərin əldə edilməsi qeyri-mümkündür. Belə deyə bilərik ki, Biznes -plan sahibkarlıq fəaliyyətinin planlaşdırma və icraetmə sahəsində başlanğıc nöqtəsi və əsasdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Biznes - planın səmərəliliyinin artırılması, biznes infrastrukturlarının formalaşdırılması istər istehsalçılar, istər də istehlakçılar üçün əlverişli biznes mühitinin yaradılmasıdır.

Biznes konsepsiyasının hazırlanması və reallaşması, bazarda müvazinətin və struktur dayanıqlığının təminatıdır.

***Açar sözlər: Biznes-plan, biznes fəaliyyəti, biznes mühiti, biznes-planın tərtibi, investisiya mühiti.***

### *Giriş*

Müasir biznesin tələblərindən ən əsası yeni ideyaların planlaşdırılmasından, daha dəqiq desək, biznes-planların səmərəli işlənib hazırlanmasından ibarətdir. İlk növbədə, sahibkarlıq subyektlərinə öz strategiyasını qurmağa, mövcud vəziyyəti real qiymətləndirməyə, nəzərdə tutulan ideyanın həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitlərinin həcmini dəqiq müəyyənləşdirməyə, əsas işçi personal toplamağa, bazarı strategiyaya uyğun olaraq araşdırmağa imkan verir.

Təcrübə göstərir ki, biznes-planının yeni ideyasının həyata keçirilməsində planlaşdırmanın lazımi səviyyədə aparılmamağı adətən nəzərdə tutulmayan problemlər əmələ gətirir. Yeni ideyanın həyata keçirilməsi üçün bütün aspektlər nəzərə alınmaqla düzgün tərtib olunmuş biznes-planın

mövcudluğu müsbət nəticələrin əldə edilməsinə zəmin yaradır. Biznes-plan, həyata keçirilməsi nəzərdə tutulan ideyanın dərin analizini, həyata keçirilmə prosesində qarşılaşması mümkün olan problemlərin öyrənilməsini və bu problemlərin həlli yollarının tapılmasını müəyyən edir. Həqiqətən də, düzgün tərtib olunmuş biznes-plan, son nəticədə, nəzərdə tutulan ideyanın həyata keçirilməsinin məqsədəuyğun olub-olmadığını, bu ideyanın həyata keçirilməsinə sərf ediləcək vaxt, güc və maliyyə vəsaitlərinin özünü doğruldub-doğrultmayacağını xəbər verir.

Demək olar ki, hər bir ideyanın həyata keçirilməsi üçün biznes-planın mövcudluğu dövrümüzün ən vacib tələblərindəndir.

Biznes nədir? “Biznes” – “gəlir əldə etməyə yönəldilmiş iqtisadi fəaliyyət” kimi izah edilir, yəni bizneslə məşğul olmaq deməkdir, biznesin məqsədi isə gəlir əldə etməkdir. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada sahibkarlar əvvəlcədən özlərinin Biznes-planlarını tərtib etmədən işə başlasınlar.

Biznes-plan iki hissədən: görüləcək işin ideyasından, məqsədindən və ideyanın məqsədinin həyata keçirilməsindən ibarətdir. Başqa sözlə dedikdə, Biznes-planda nəzərdə tutulmuş biznesin, yəni gəlir əldə etmək məqsədinin qısa, dəqiq və aydın şərhi verilir və ona nail olmağın şərtləri, yolları aşkarlanır.

Biznes - Planın tərtib edilməsinin üç vacib əhəmiyyəti vardır:

1. Biznes-plan – biznesin, yəni gəlir əldə etməyin idarə olunmasının hazırlanmasında istifadə edilə bilər;

2. Biznes - plan elə bir alətdir ki, iş adamı onun köməkliyi ilə təsərrüfatın müəyyən dövr ərzində fəaliyyətinin nəticələrini qiymətləndirə bilər;

3. Biznes-plan – təsərrüfatın inkişafına pul vəsaitinin cəlb edilməsinin vasitəsidir.

Yuxarıda qeyd olunanlar bir daha onu sübut edir ki, hər bir iş adamı üçün əvvəlcədən Biznes-planın tərtib edilməsi olduqca vacib məsələdir.

**Biznes-planın əsas məqsədi və vəzifələri**

Biznes-planlaşdırma dedikdə müəssisə və təşkilatın təsisi, rekonstruksiyası, fəaliyyəti üzrə işçi sənədlərin hazırlanmasının nəticəsi nəzərdə tutulur. Bu nəticə müəyyən zaman kəsiyində və müəyyən şərtlər daxilində biznesin iqtisadi dayanıqlılığını və səmərəliliyinin dərəcəsini dərk və təsvir etməyə istiqamətləndirilmişdir.

Biznes-plan reallığı əks etdirən texniki-iqtisadi məlumatlar əsasında hazırlanmalıdır. Bazar iqtisadiyyatı amillərinə, elmi-texniki nailiyyətlərə əsaslanmayan biznes–planla həyata keçirilən sahibkarlıq fəaliyyətindən müvəffəqiyyət gözləməyə dəyməz. Biznes-planın hazırlanmasına formal yanaşmaq olmaz. Bu cür yanaşma sahibkarlıq fəaliyyətinə ziddir.

Biznes-planların hazırlanmasında aşağıdakıları bilmək lazımdır:

- müəyyən bir məhsul istehsalı və yaxud xidmətin göstərilməsini nəzərdə tutan konkret təklifin olması;
- oxşar məhsul istehsalı və xidmət göstərilməsi ilə məşğul olan müəssisələrin istehsal təsərrüfat fəaliyyətinin hərtərəfli öyrənilməsi;
- idarəetmədə texniki-iqtisadi, maliyyə-kredit və sosial-təşkilati mexanizmlərin öyrənilməsi.

Biznes-planın hazırlanması 2 mərhələni əhatə edir:

I mərhələdə - təşkil ediləcək biznes, onun satış bazarı, cəlb ediləcək maliyyə mənbələri haqqında zəruri informasiyalar toplanılır. II mərhələdə toplanmış informasiyalar sistemləşdirilir.

Biznes-plan hazırlanan zaman nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə diqqət yetirilməli, tələb olunan vəsaitin həcmi, xərclərin öz vəsaiti və ya cəlb edilmiş vəsaitlər hesabına ödənilməsi, gözlənilən nəticələr hesablanmalı və uzlaşdırılmalıdır. Onu da qeyd etmək lazımdır ki, cəlb olunmuş vəsaitlərin çox olması, həmin layihənin həyata keçirilməsinin bir o qədər təhlükəli olduğunu göstərir. Ona görə də, daxili maliyyələşdirmə mənbələrinin aşkar olunmasına diqqət yetirilməlidir.

Biznes-plan əsasında mühüm iqtisadi məsələlər həll edilir:

- müəssisənin strateji inkişaf konsepsiyasının məqsədəuyğunluğunun iqtisadi əsaslandırılması;
- müəssisənin fəaliyyətindən əldə ediləcək məhsul istehsalı və satışı həcminin, maliyyə nəticələrinin, mənfəət göstəricilərinin hesablanması;
- müəssisənin qarşısında qoyulan məsələlərin həlli üçün lazım olan maliyyə mənbələri;
- strateji inkişaf xəttinin həyata keçirilməsi texniki və təşkilati tədbirlərin müəyyənləşdirilməsidir.

Biznes-plan hazırlanan zaman görüləcək konkret işlərin siyahısı müəyyənləşir və lazım olan maddi və əmək ehtiyatları qiymətləndirilir. Görüləcək işlər üzrə fəaliyyət proqramı kimi, biznes-plan işgüzar təkliflərin hazırlanmasını və həyata keçirilməsini təşkil edir.

Biznes-plan keçmiş, indiki və gələcək fəaliyyətin qısa yazılı şərhidir. İş görməyə hazırlaşanda biznes-planın əsas məqsədi maliyyə və istehsal sahələri üzrə hər şeyin planlaşdırılması və əsaslandırılmasında əminlik yaratmaqdır. Biznes-plan iqtisadi oyunun planıdır. O, fəaliyyətin məqsədlərini, istiqamətlərini müəyyənləşdirir.

İdeal halda biznes-plan şirkətin sahib(lər)i və müdir(lər)i tərəfindən hazırlanmalıdır. Müxtəlif mütəxəssislərdən də istifadə etmək olar, amma plan şəxsən sahibkarın özününkü olmalıdır və onu təqdim etməli, onun haqqında qısa məlumat verməli, verilən sualları cavablandırmalıdır.

Biznes - plan hər il yeniləşdirilir. Bu halda işçi variantdan istifadə edilir. Belə olduqda köhnə nəticələrə uyğun olaraq bəzi maddələr düzəldilə, eləcə də proqnozun keyfiyyəti və hesablamaların həqiqiliyi müəyyənləşdirilə bilər.

Biznes-plan rəsmi sənəddir. Onun yazılması üçün kifayət qədər işçi məlumat materialı tələb olunur. Ona görə də əvvəlcə işçi biznes-plan tərtib etməlidir. Oradakı məlumat rəsmi planda olan sərlövhələr altında yerləşir. İfadələr sadə və aydın olmalıdır.

Biznes - plan kifayət qədər geniş tutumlu anlayışdır. Layihənin texniki-iqtisadi əsaslandırılması (TİƏ), investisiya layihəsi kimi terminlər ona çox yaxındır. Buna görə də biznes - plan anlayışının mənasını araşdırmamışdan əvvəl terminologiyadakı bir sıra fərqləri aşkarlamağa cəhd göstərmək lazımdır.

Biznes-plan ümumi termindir, çünki adı çəkilən hər iki termini özündə birləşdirir. Bununla yanaşı, TİƏ həm biznes-planın, həm də investisiya layihəsinin tərkib hissəsidir. İnvestisiya layihəsi isə kənardan əlavə vəsaitlərin cəlb edilməsinə və ya vəsaitlərin tərkib hissələri arasında bölünüb paylanmasına əsaslanır. Biznes-plan, bir qayda olaraq, investisiyaların cəlb edilməsinə istiqamətlənərək mövcud biznesin iqtisadi məqsədilə və ya özünün gəlirlərinin toplanması hesabına onun daxili inkişafı məqsədilə tərtib edilə bilər. Bundan əlavə, investisiya layihəsi dedikdə elə ənənəvi layihələr nəzərdə tutulmalıdır ki, iqtisadi mənfəət gətirməyə qadir olsunlar. Müəyyən sosial səmərə gətirməyə yönəlmiş investisiya proqramı da biznes-plan sayıla bilər. [4, s. 25]

Bütün biznes-planlar adətən Titul vərəqindən başlayır. Titul vərəqində göstəricilər aşağıdakılardır:

- layihənin təşəbbüskarı olan sahibkarlıq subyektinin adı, ünvanı və telefonları;
- mülkiyyət formasını və dövlət qeydiyyatını əks etdirən məlumatlar;
- vergi ödəyicisi kimi qeydə alınması;
- biznes-fəaliyyət üçün lisenziyasının olması (xüsusi icazə tələb olunduqda);
- müəssisənin bank rekvizitləri;
- layihənin hazırlanma yeri və vaxtı.

**Biznes - planın tərtibinin hazırlanması metodologiyası**

Biznes planın tərtibi ilə bağlı müxtəlif təşkilatların və alimlərin fikri olmuşdur. Məlumdur ki, hər ölkənin xüsusiyyətinə uyğun olaraq bölmələr müxtəlif cür ola bilər. Hər bir halda xarici investorlar üçün hazırlanan biznes- plan daha dolğun və bütövlükdə investoru maraqlandıra biləcək səviyyədə olmalıdır. Bu tip biznes planlarda ən çox diqqət çəkən məqam biznes-planın dili ilə bağlıdır. Hazırlanmış biznes-plan mütləqdir ki, xarici investorun dilinə tərcümə olunsun, yaxud da mövcud olan beynəlxalq danışıq dilində olsun.

Bazardakı vəziyyətə uyğun olaraq Biznes-planlar müxtəlifdir. Biznes-planların siniflərə bölünməsi öz əksini aşağıdakı kimi tapmışdır:




**Şəkil 1. Biznes-planın siniflərə bölünməsi**

Biznes-planın əsas növlərini aşağıdakı kimi təsnifləşdirək:

1. Məqsədə görə:
   - ✓ Xarici maliyyə mənbəyinin tapılması;
   - ✓ İnkişaf strategiyasının hazırlanması;
   - ✓ Sahibkarlıq subyektinin fəaliyyətinin planlaşdırılması.
2. İstifadə olunan üsula görə:
   - ✓ Beynəlxalq UNİDO (Birləşmiş Millətlər Təşkilatının İqtisadi İnkişaf üzrə Komissiyası) üsulu;
   - ✓ Yerli maliyyə institutlarının üsulu;
   - ✓ Müasir Qərb üsulu.
3. Planlaşdırma obyektinə görə:
   - ✓ İnvestisiya layihəsi;
   - ✓ Müəssisə;
   - ✓ Müəssisələr qrupu;
   - ✓ Biznes vahidlik (ayrıca bir biznes istiqaməti).
4. Biznes-plan təyinatına görə müxtəlif modellər üzrə hazırlanır:
   - ✓ Biznes istiqamət (məhsul, iş, xidmət) üzrə;
   - ✓ Ümumilikdə sahibkarlıq subyekti (yeni və ya mövcud) üzrə.

E.A.Utkin belə hesab edir ki, ilk baxışda biznes-planlar nə qədər bir-birindən fərqlənsələr də mahiyyətcə aşağıdakı bölmələrdən ibarət olmalıdır: qısa məzmun (xülasə), fəaliyyət sferasının xüsusiyyətləri, yaradılan (yaxud mövcud) müəssisənin və onun istehsal edəcəyi məhsulun təsviri, bazarın təhlili və tədqiqi, marketinq planı, istehsal və maliyyə planı, mövcud riskin qiymətləndirilməsi və sığorta. [7, s. 99]

E.Məmmədov biznes-planın tərkibini aşağıdakı kimi təklif etmişdir: titul vərəqi; mündəricat; xülasə; firma haqqında məlumat; biznes üçün mühit; tendensiyalar; siyasət və normativ müddəalar; rəqabət; marketinq və satış üzrə plan; satış həcmi üzrə məqsədlər; qiymətqoyma; gələcək

satışlar; ticarətin təşkili; müştərilərin təhlili; mal və xidmətlərin satılmasına yardım proqramları; reklam proqramı.

Bu sahədə çox tanınmış mütəxəssis Q.Berl biznes-planın daha yığcam sxemini təqdim edir, belə ki, bütövlükdə biznes-planın beş bölmədən ibarət olmağını məqsədəuyğun hesab edir:[5-s.30]

- ✓ Zəruri olan vəsaitin məbləği də daxil olmaqla kredit sifarişinin məqsədi;
- ✓ Şəxsi vəsait; Burada müəssisənin təsisçilərinin tərəf-müqabillərinin və onların ailələrinin müəssisəyə qoyduqları şəxsi vəsait göstərilir;
- ✓ Biznesin təsviri; Burada müəssisənin təşkilati hüquqi forması, kəmiyyət göstəriciləri, müəssisənin yerləşdiyi yer, ünvan, işçilərin sayı verilir. Həmçinin istehsal olunan məhsul, göstərilən xidmət, müəssisənin tarixi, perspektiv inkişafı, marketinq zonası, firma ilə əlaqədə olan istehsalçılar və istehlakçılar haqqında məlumat əks etdirilir;
- ✓ İdarəetmə; Rəhbər işçilərin və onların əvvələr qazandıqları iş təcrübəsi burada əksetdirilir.
- ✓ Müəssisənin maliyyə proqnozu və göstəriciləri; Əgər bu müəssisə yeni yaradılırsa onda müəssisənin balans planı işlənib hazırlanır və qiymətləndirmə proqnozu verilir. Bundan başqa müəssisənin inkişafında gözlənilməz hallar üçün ehtiyat vəsait yığımı da burada öz əksini tapır. Əgər müəssisə fəaliyyətdə olan müəssisədirsə, onda gəlir və zərərlər haqqında son iki-üç il üçün hesabat verilir, eyni zamanda bugünkü vəziyyət haqqında da məlumat verilir.

**Biznes-planın səmərəliliyinin qiymətləndirilməsi**

Biznes-planın səmərəliliyinin qiymətləndirilməsi investisiya qərarlarının qəbulu prosesində ən dəyərli mərhələdir. Layihənin dəyərinin təyin edilməsinin əsasını layihənin bütövlükdə və həmçinin onun ayrı-ayrı hissələrinin layihə işləmələri təşkil edir. Təyin olunmuş işlərin yerinə yetirilmə dəyəri və texnoiloji avadanlıqların dəyəri layihənin texniki-iqtisadi göstəricilərini hesablamağa, onları analoq-layihələrlə müqayisə etməyə, layihələndirmədə üstünlükləri və qüsurları aşkar etməyə, əsaslı vəsait qoyuluşunun səmərəliliyinin yüksəldilməsi üzrə əsas məsələlərin həll olunmasına imkan verir. Layihələrin qiymətləndirilməsi və təhlili, investisiya qərarlarının qəbul edilməsi prosesində prinsiplərin, meyarların və metodların düzgün seçilməsi mühüm rol oynayır.

İnvestisiya biznes layihələrinin səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən baza prinsipləri aşağıdakılardan ibarətdir.

İnvestisiyalaşdırılan kapitalın qaytarılmasının qiymətləndirilməsi prinsipi. Bu prinsip investisiya-biznes layihələrinin istismar prosesində məcmu xalis mənfəətlə məcmu amortizasiya ayırmalarının cəmi kimi formalaşan pul axını (Keş-Lou) göstəricisinə əsaslanır.

İnvestisiyalaşdırılan kapital və pul axınlarının hazırkı dəyərə gətirilməsi prinsipi. Bu prinsip istər investisiya edilən kapitalın, istərsə də məcmu pul axınının hazırkı dəyərlə ifadə edilmə zəruriliyidir.

- ➢ Qiymətləndirmə faizinin diferensial normasının (diskontetmə norması) seçilməsi prinsipi.
- ➢ Qiymətləndirmə məqsədindən asılı olaraq diskontetmə normasının variasiya etmə prinsipi.

İnvestisiya biznes layihələrinin qiymətləndirilməsi iki yerə ayrılır. Zamanı diqqətə alan və Zamanı diqqətə almayan. Onlar özlüyündə tərkib hissələrə ayrılırlar.

Zamanı diqqətə almayan (statik) üsullar:

- ➢ Mənfəətlilik dərəcəli üsulu;
- ➢ Geri ödəmə müddəti üsulu.

Zamanı diqqətə alan (dinamik) üsullar:

- ➢ Xalis bugünkü dəyər üsulu;
- ➢ Daxili mənfəətlilik dərəcəsi üsulu;
- ➢ Fayda/məsrəf nisbəti üsulu.

İnvestisiya layihələrinin səmərəliliyini müəyyən edərkən bu amilləri nəzərə almaq lazımdır:

- ➢ Layihələrin maliyyələşdirilməsi üçün lazımi vəsaitlərin həcmi;
- ➢ Vəsaitlərin zamana görə axın intensivliyi;
- ➢ Layihələrin həyata keçirilmə müddəti;

- İnvestisiya layihələrinin istifadə edilməsi müddəti;
- Layihəyə daxil olan texnoloji avadanlığın normativ xidmət müddəti;
- Biznes risklərinin olması və ya olmaması;
- İnteqral iqtisadi səmərə;
- İstifadə edilən amortizasiya və vergitutma sistemi.

Bunlarla yanaşı investisiya layihələrinin səmərəlilik göstəriciləri də bir- birindən fərqlənirlər.

1. Kommersiya (maliyyə) səmərəliliyi, layihənin reallaşdırılmasının maliyyə nəticələrini nəzərdə tutur;
2. Büdcə səmərəliliyi, layihənin dövlət və ya yerli büdcələr üçün maliyyə göstəricilərini əks etdirir;
3. İqtisadi səmərəlilik, layhənin reallaşdırlması ilə əlaqədar xərcləri və nəticələri nəzərdə tutur.

Fərqli müddətli layihələrin müqayisəli təhlili üçün müxtəlif metodlardan istifadə edilir. a) ən kiçik ümumi tam bölünənlər metodu, b) müqayisə edilən layihələrin sonsuz təkrarlanması, c) ekvivalent aniutet metodu. İnflyasiya şəraitində ya proqnoz pul axını ya da diskontlaşdırma əmsalı təhsis edilir.

### *Nəticə*

Azərbaycanda Biznes-planların geniş tətbiqi XX əsrin 90-cı illərinin ortalarına təsadüf edir. Bu dövrdə respublikamızda fəaliyyət göstərən bir sıra proqramlar (MDB ölkələrində iqtisadi islahat proseslərinin tezləşdirilməsinə yardım üzrə Avropa İttifaqının TACİS proqramı) və xarici maliyyə institutları, Dünya Bankının maliyyə qurumu olan Beynəlxalq Maliyyə Korporasiyası (İFC), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) Biznes-planların gündəmə gətirilməsində özünəməxsus rol oynamışlar.

Müasir iqtisadi şəraitdə lazımi qərarların qəbul edilməsi üçün ən əlverişli variant Biznes-planların geniş şəkildə tətbiq edilməsidir. Bazar iqtisadiyyatı şəraitində, tələb olunan səviyyədə hazırlanmış Biznes-plan olmadan, yüksək nailiyyətlərin əldə edilməsi qeyri-mümkündür. Şəraitə uyğun olaraq sistematik yenilənən Biznes-planın olmamağı nəzərdə tutulan ideyanın həyata keçirilməsində zəif idarəetmədən, mövcud vəsaitlərə nəzarətin aşağı səviyyədə olmasından, rəqabətli mühitdə uzunmüddətli stabilliyin əldə olunmasının qeyri-mümkünlüyündən xəbər verir.

Belə deyə bilərik ki, Biznes-plan sahibkarlıq fəaliyyətinin planlaşdırma və icraetmə sahəsində başlanğıc nöqtəsi və əsasdır.

Bazar iqtisadiyyatı inkişaf etmiş bütün qabaqcıl ölkələrdə Biznes-plan artıq çoxdan öz layiqli yerini tutmuşdur. Bu gün respublikamız, həm maliyyə resurslarının əldə edilməsi, həm şəxsi biznes ideyaların formalaşdırılması, həm də mövcud bizneslərin qiymətləndirilməsi istiqamətində vacib olan Biznes - planların hazırlanması sahəsində təcrübə toplamaqdadır. Müxtəlif mülkiyyət formalarına malik olan idarə və müəssisə rəhbərləri, fərdi sahibkarlar, lizinq şirkətləri və s. öz biznes fəaliyyətlərində Biznes-planlara daha geniş maraq göstərməyə başlamışlar. Biznes-plan ildən-ilə Azərbaycan sahibkarlığının strateji planlaşdırma alətinə, sərmayədarlarla işgüzar danışıqlar aparmaq üçün vacib sənədə çevrilmişdir.

Qeyd edilənləri nəzərə alaraq məqalədə aşağıdakı məsələlər nəticə olaraq əldə edilmişdir:

- Biznesin planlaşdırılması prosesinin mərhələli təhlili müəyyənləşmişdir;
- Xarici investorlar üçün biznes-planın qiymətləndirilməsi prinsip və metodları izah edilmişdir;
- İnvestisiya layihələrinin səmərəliliyini təyin edən amillər izah edilərək səmərəlilik müəyyənləşdirilmişdir;
- Biznes-planın hazırlanması metodikası izah edilmişdir;
- Biznesin təşkilində biznes-planın zəruriliyi;
- Xarici investorların fəaliyyətinin ölkə iqtisadiyyatının inkişafında rolunun olması;
- İnvestisiya layihələrinin müxtəlif əsas mərhələləri qeyd edilmişdir;
- Strteji plan ilə biznes-planın fərqli cəhətləri müəyyənləşdirilmişdir.

## ƏDƏBİYYAT


1. “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1998.
2. Ə.S.Məmmədov- “Sahibkarlar konfederasiyası ölkənin iqtisadi inkişafına dəstək verməyi əsas vəzifə hesab edir.”(Maliyyə və uçot jurnalı2005/4)
3. Kiçik və orta sahibkarlıq subyektləri üçün əyani vəsait. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu. Bakı, 2002. 78 səh.
4. Как составить Бизнес-план. Эдвард Блэквелл. Инфра-М. Москва, 1996. 159 стр.
5. Создат свою фирмую . Учебник Г.Верл. Москва, 1994. 192 стр.
6. Конкрурентная стратегия. Майкл Портер. Альпина паблишер; М.:2016 с453
7. В.М.Попов ,С.И.Ляпунов. Визнес-планирование:анализ ощибок, рисков, конфиликтов. М.: КноРус,2003 с.448
8. «Бизнес-планирование»Э.А.Уткин, Б.Котляр, В.Рапопорт М.:2011,с.320
9. www.sahibkar.az
10. www.iqtisad.net



***Васиф Балахан оглы Газиев***
***Азербайджанский Университет Кооперации,***
***завебующий кафедры “Менеджмент и торговля”,***
***к.э.н., доцент,***

***Айдын Эхтибар оглы Бахрамов***
***Азербайджанский Университет Кооперации,***
***завебующий кафедры “Менеджмент и торговля”,***
***АУК, стар.препоб***


## Теоретическая методология формирования бизнес-плана


***Резюме***

**Цель исследования:** Целью исследования является определение важных направлений формирования бизнес-плана, уточнение механизмов и технологий, применяемых в современном управлении бизнесом. Кроме того, разъясняется анализ должностей и распределение полномочий в бизнесе и связь бизнес-плана со стратегиями его развития.

**Методология исследования:** в исследовательской работе использовались методы сравнительного анализа, группировки, обобщения и анализа бизнес-плана.

**Прикладная значимость исследования:** Формирование бизнес-плана, нейтрализация деструктивных проявлений факторов внешней и внутренней среды бизнеса существенно создает благоприятные условия для повышения экономической активности и деловой активности, что положительно влияет на рост бизнес-плана и в то же время поднимает перспективы эффективного становления предпринимательства и деловой активности.

**Результаты исследования:** Наиболее благоприятным вариантом для принятия необходимых решений в современных экономических условиях является широкое применение бизнес-планов. В условиях рыночной экономики невозможно добиться высоких достижений без бизнес-плана, подготовленного на необходимом уровне. Можно сказать, что Бизнес-план является отправной точкой и основой для планирования и осуществления предпринимательской деятельности.

**Оригинальность исследований и научная инновационность:** Повышение эффективности бизнес-плана, формирование бизнес-инфраструктур – это создание благоприят ной бизнес-среды как для производителей, так и для потребителей.

Разработка и реализация бизнес-концепции – залог сбалансированности и структурной стабильности на рынке.

***Ключевые слова: Бизнес-план, деловая активность, бизнес-среда, формулировка бизнес-плана, инвестиционная среда.***

***Vasif Balakhan Haziyev***
***Azerbaijan Cooperation University***
***Department of "Management and Trade"***
***director i.e.n., associate professor***

***Aydın Ehtibar Bahramov***
***Azerbaijan Cooperation University***
***Department of "Management and Trade" head teacher, ACU***

**Theoretical methodology of business plan formation**

***Summary***

**The purpose of the study:** The purpose of the study is to determine the important directions of the formation of the business plan, to clarify the mechanisms and technology applied in modern business management. In addition, it explains the analysis of positions and the distribution of powers in business and the connection of the business plan with its development strategies.

**Research methodology:** comparative analysis, grouping, generalization and analysis methods of the business plan were used in the research work.

**Application importance of the research:** The formation of a business plan, the neutralization of the destructive manifestations of internal and external environmental factors of business essentially creates favorable conditions for the increase of economic activity and business activity, which has a positive effect on the growth of the business plan and at the same time raises the prospects of the effective establishment of entrepreneurship and business activity. .

**Research results:** The most favorable option for making the necessary decisions in modern economic conditions is the wide application of Business plans. In the conditions of the market economy, it is impossible to achieve high achievements without a business plan prepared at the required level. We can say that the Business plan is the starting point and the basis for the planning and implementation of entrepreneurial activity.

**Research originality and scientific innovation:** Increasing the efficiency of the business plan, forming business infrastructures is the creation of a favorable business environment for both producers and consumers.

Development and implementation of the business concept is a guarantee of balance and structural stability in the market.

***Key words: Business plan, business activity, business environment, business plan formulation, investment environment.***